**UOT 75**
https://doi.org/10.59849/2311-8482.2025.4.186

**NƏRMİN EMİNBƏYLİ***

# AZƏRBAYCAN BƏSTƏKARI QARA QARAYEVİN MONUMENTAL ABİDƏSİNİN PORTRET XÜSUSİYYƏTLƏRİ

*Azərbaycan heykəltəraşlığında protret janrının özünəməxsus yeri vardır. Heykəltəraşların yaradıcılığında Azərbaycan tarixində, ədəbiyyatında, ədəbi-mədəni həyatında mühüm rol oynayan şəxsiyyətlərin həyatına, yaradıcılığına müraciətlə yanaşı, həmin şəxsiyytlərin özünün portretinin yaradılmasına da önəm verilirdi. Füzulinin, Nizaminin, Nəsiminin, Xətainin və b.portretlərinin çəkilməsi, heykəllərinin ucaldılmasını misal göstərmək mümkündür. Belə görkəmli mədəniyyət xadimlərindən biri də Azərbaycan bəstəkarı Qara Qarayevdir. Qara Qarayev şəxsiyyətinin portret yaradıcılığına cəlb edilməsini biz xalq rəssamı Tahir Salahovun yaradıcılığında da görürük. 2014-cü ildə isə Qara Qarayevin Bakı şəhərində abidəsi ucaldılmışdır. Məqalədə həmin abidə tədqiqata cəlb edilmişdir. Müəllifi xalq rəssamı Fazil Nəcəfov olan bu abidənin respublika rəhbərliyi və ictimaiyyət tərəfindən sevinc və maraqla qarşılanması, geniş müzakirə obyektinə çevrilməsi heykəltəraşın qarşısına qoyduğu məqsədə nail olduğunu göstərir. Məqalədə abidənin bədii xüsusiyyətləri, yaranma şəraiti, heykəltəraşın işləmə texnikası tədqiq edilmişdir.*

***Açar sözlər:*** *Qara Qarayev, heykəltəraşlıq, portret, obraz, monumental, bədii.*

## Giriş

Müstəqilik dövrü Azərbaycan heykəltəraşlığında portret janrı yeni xüsusiyyətlərlə zənginləşmişdir. Portret janrının müstəqillik dövründəki inkişafına nəzər yetirsək, onda sənətkarların daha çox həyat müşahidələrinə əsaslandıqlarını söyləyə bilərik. Düzdür, heykəltaraşlarımızın yaradıcılığında uzaq-yaxın keçmişimizin şanlı səhifələrini rövnəqləndirən şəxsiyyətlərin portretləri də tez-tez yer almışdır, amma bununla belə sənətkarların bilavasitə müasirlərinin obrazlarına davamlı müraciət etdiklərini qeyd etməliyik.

Bununla belə Azərbaycan heykəltəraşları tərəfindən yaradılan və respublikamızla yanaşı onun hüdudlarından uzaqlarda qoyulan bir çox portret abidələrində forma-biçim özünəməxsusluğuna rast gəlmək mümkündür. Bu mənada Ömər Eldarov, Tokay Məmmədov, Fuad Salayev, Natiq Əliyev, Akif Əsgərov, Azad Əliyev, Fazil Nəcəfov və s. ərsəyə gətirdiyi abidələrin bir çoxunda ideoloji müstəqilliyin onlara verdiyi imkanların praktikada yaddaqalan tətbiqini görmək mümkündür.

## Əsas təhlil

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin, Birinci xanım Mehriban Əliyevanın, ölkənin tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə Bakı şəhərinin mərkəzində 2014-cü ilin fevral ayının 3-də dahi Azərbaycan bəstəkarı Qara Qarayevin monumental abidəsinin açılışı həm paytaxt sakinləri, həm də heykəltəraş, Xalq rəssamı, Prezident təqaüdçüsü Fazil Nəcəfovun həyatında əlamətdar hadisə olmuşdur. Artıq Bakı sakinlərinin yeni bir ünvanı, yeni bir istirahət yeri də yaradılmış oldu: Qara Qarayev parkı, Qara Qarayev abidəsi. Bakı şəhəri üçün qeyri-ənənəvi üslubu, özünəməxsus bədii forma və məzmunu ilə seçilən bu abidə bir neçə aydır ki, ictimaiyyət və media nümayəndələrinin, sosial şəbəkələrin istifadəçilərinin, rəssamların, heykəltəraşların, musiqiçilərin müzakirə obyektinə çevrilmişdir. Müzakirələr kifayət qədər müxtəlifdir: kimisi tərifləyir, kimisi tənqid edir, kimisi anlayır, kimisi də anlamır. Abidə üzərində üç ildən artıq bir dövrü əhatə edən iş prosesini əvvəldən axıradək izləmək imkanım olduğu üçün deyə bilərəm ki, abidənin araya-ərsəyə gəlməsi tənqid etmək və ya tərifləmək qədər bəsit iş olmamışdır. Birincisi ona görə ki, Qara Qarayev XX əsr dünya və Azərbaycan mədəniyyətinin ən dahi bəstəkarlarından biri olaraq, son dərəcə milli xüsusiyyətlərə malik, nadir şəxsiyyət idi. Azərbaycan xalq musiqisinin

fundamental əsaslarını bilməsi onun hədsiz erudisiyaya malik musiqi istedadında dünya musiqi mədəniyyəti ilə üzvi şəkildə birləşmişdir. Bu yüksək istedada malik, səslərlə şəkil çəkən rəssam özünə daim tənqidlə yanaşaraq, yorulmaq bilmədən çalışır, hər şeyə, o cümlədən musiqiyə böyük tələbkarlıqla yanaşırdı. Qara Qarayev gənc yaşlarından professionalizmin ən yüksək həddinə çatmağı qarşısına məqsəd qoymuş, ömrünün sonunadək bu səviyyəni daim yüksəltməyə çalışmışdır. Haqlı olaraq onu Azərbaycan xalqının iftixarı adlandırırlar. Bu həm də dünya miqyasında böyük şəxsiyyət olmaq deməkdir. Özlüyündə yalnız milli deyil, eyni zamanda dünya mədəniyyətinin sərvəti olan dahi şəxsiyyətin abidəsinin ucaldılması heykəltəraş üçün böyük fəxr hissi olmaqla bərabər, həm də olduqca çətin tapşırıq idi. İkincisi Fazil Nəcəfov da bunu anlamaya bilməzdi. Nəzərə alsaq ki, Qara Qarayevin bədii obrazı bir çox rəssamlar, o cümlədən Tahir Salahov tərəfindən yaradılmış və artıq təsəvvürlərdə bəstəkarın adı ilə identik surətdə canlanırdı. Qara Qarayevlə Fazil Nəcəfovu bir-biri ilə yaxınlaşdıran çox məqamlar var. Hər ikisi qarşıya qoyduqları həyat amallarına nail olmaq üçün heç vaxt dayanmamış, nail olduqları ilə kifayətlənməmiş, səlis bədii ifadə dilini yeniləməyə çalışmışlar. Hər ikisi müxtəlif məmurlar qarşısında öz əsərlərinin məzmunu haqqında mütəmadi olaraq izahat vermək məcburiyyətində qalmışlar (bir zaman Qara Qarayevin professional aləmdə nüfuz göstəricisi olan reqaliyalarını, mükafatlarını, vəzifəsini bir neçə dəfə aşağı salmışdılar). “Vaxtı qabaqlamış başqa böyük sənətçilər kimi o da, xüsusilə gənclik illərində, anlaşılmazlığın sol divarı qarşısında dirənməli olurdu...” [3, 14].

Sənətşünas Qalib Qasımov qeyd edir ki, “Fazil Nəcəfov Qara Qarayevin həyat və yaradıcılığını dərindən və diqqətlə öyrənmişdir. Onun əsərlərini dəfələrlə dinləmiş, haqqında deyilənləri, yazılanları, filmləri sanki bir tədqiqatçı kimi diqqətlə araşdırmışdır. Elə bu araşdırmalar zamanı da abidənin ilkin eskiz variantları meydana gəlmişdir. Qara Qarayev dühasının hər yeni təfərrüatını, onun dahiyanə musiqi dünyasının fəlsəfi mahiyyətini anlamaq, hər dəfə yeni fikir və ideyanın yaranmasına səbəb olur, heykəltəraşın yuxusunu ərşə çəkirdi. Abidənin ucaldılması üçün sərf olunan üç ilin böyük bir hissəsini Fazil Nəcəfov məhz bu ideyalar burulğanında keçirmişdir. Emalatxanasına hər dəfə gedəndə çoxsaylı eskizlərin, rəsmlərin, forma axtarışlarının şahidi olurduq. Hətta mənə elə gəlirdi ki, bu eskizlərin, axtarışların axınında nəhayətə varmaq, sonuncu variant üzərində dayanmaq mümkün olmayacaq. Çünki Qara Qarayevin şəxsiyyətinin böyüklüyü və heykəltəraşın istedad ümmanında bir nöqtədə dayanmaq mümkünsüz bir işə bənzəyirdi. Bəstəkarın novatorçu xüsusiyyətini bilən heykəltəraş başa düşürdü ki, bu şəxsiyyətə ucaldılan abidə mürəkkəb olmalı, birmənalı və bəsit görünməməli, özündə yeni, nə isə qeyri-ənənəvi məzmun daşımalı və buna uyğun formaya malik olmalıdır”. [3. S. 76]

Söhbət belə iri miqyaslı şəxsiyyətdən getdiyi üçün dəzgah heykəltəraşlığı əsərlərindən (hətta iri ölçülü olanlarından) fərqli olaraq, bu abidə öz janr spesifikasına uyğun olaraq müəllifə xas olmur. Abidə üzərində iş zamanı heykəltəraş çoxsaylı açıq-aşkar aspektləri nəzərdən keçirməli olmuşdur. Burada dahi bəstəkarın yaxınlarının, əzizlərinin arzusunu da nəzərə almamaq mümkün deyildi. Abidə şəhər, onun sakinləri və qonaqları tərəfindən, onun yanından hər gün ötüb keçən, onun ətrafında istirahət edən insanlara necə təsir edəcək və necə qəbul olunacaq? Nəhayət abidə yerində ucaldıldı və tarixin bir səhifəsinə çevrildi.

Fazil Nəcəfov bu abidənin modelini, formasını tapanadək yüzlərlə rəsmlər, gips modellər üzərində işlədi və axtarışlar apardı. Nəhayət sonuncu variant tapıldı və memarla (Əməkdar memar Rəhim Seyfullayev) razılığa gəlindi. Abidən dəqiq ölçüləri (3.5 m) müəyyənləşdirildi, ucaldılacağı nöqtə tapıldı. Bu nöqtədə abidə necə baxılacaq, necə qəbul olunacaq, ətraf memarlıq və təbii landşaftla üzvü şəkildə həmahəng ola biləcəkmi? bütün bu detallar dəqiqləşdirildi. İnsan ömrünün üç ili, Qara Qarayevsiz daha üç il arxada qaldı və nəhayət xalqımızın, sənətsevərlərin ürəyində əbədi yer tutmuş Qara Qarayevin daş üzərinə yaşayan, əbədiləşən, heykəlləşən obrazı əbədi məkanında özünə yer

tapdı. Heykəltəraş Ukraynadan gətirilmiş bu nəhəng mərmər parçasında bəstəkarın yalnız şəxsiyyətini deyil, onun sanki daşdan çıxaraq göylərə ucalan, meydanın plitələri üzərində bərq vuran musiqisinin mahiyyətini ifadə etməyə çalışmışdır. Abidənin ətrafında ayaq altına sərilmiş xalçanı xatırladan "Yeddi Gözəl" əsərinin notları mərmər plitələr üzərinə döşənmişdir. A kateqoriyasından olan nəhəng mərmər qaya parçası abidənin əsasını təşkil edir. Müəllifin sözlərinə görə bu Qara Qarayev obrazının bütün önəmli cizgilərinin əks olunduğu matrisadır. Abidənin ön hissəsi və ya tərəfi şaquli olaraq tamaşaçıya tərəf çevrilmiş royalın qapağının formasında verilmişdir. Onun fonunda isə bəstəkarın sanki "qanad açmış", kəskin şəkildə sağdan sola doğru çevrilmiş fiquru və qorelyef portreti işlənmişdir.

"Qara Qarayevin fiquru – ümumi kompozisiyanın əsasını təşkil edir. Müəllif burada bəstəkarın bütün gücünü və qüdrətini verməyə çalışmışdır. O daxildən gələrək üzə çıxan, ulduz kimi parlayan və ətrafı işıqlandıran enerji axını kimidir" Mərmərin bütün mümkün xüsusiyyətlərini istifadə etmək, oymaların dərinliyini müəyyən etmək, olduqca vacib idi ki, işıq və kölgənin müxtəlif istiqamətlərdən düşməsi ilə əlaqədar bütün relyeflər yaxşı oxunsun. Heykəlin bir neçə üzü və ya səthi vardır. Hər bir səth, hər bir təsvir müstəvisi müxtəlif cür işlənsə də, onlar bir-birini və ən başlıcası mövzunu tamamlayır. Yan tərədən bəstəkarın ayaqları qurtaran yerdə qədim şəhər və ondan sonra da bəstəkarın sevimli qəhrəmanları təsvir olunmuşdur. Müxtəlif plastik həllə malik olan abidənin fonunda dəyirmanla çırpışan Don Kixot, məhəbbət əsiri Məcnun və bir sıra digər səhnələr nəzərə çarpır.

Beləliklə də abidənin ətrafında hərəkət etdikcə "abidənin tipləri" vasitəsi ilə gözlərimiz bəstəkarın həyat və yaradıcılığı ilə əlaqəli hansı isə epizoda rast gəlir. Əsərlərindən götürülmüş personajlar, küçələr, köhnə Bakı evləri, nəhayət ustad heykəltəraşın əlləri, hansı ki, illər sonra bir daha sözün əsl mənasında XX əsrin böyük bəstəkarının bütün həyat yoluna nəzər salır.

Tarixi şəxsiyyətlər yalnız öz zəmanəsinə məxsus olmurlar. Gələcək nəsillər Azərbaycan musiqi mədəniyyətinin iftixarı olan, qranitdə həkk olunmuş bu obrazı hər gün görəcəklər. Onun həyatı və bütün yaradıcılığı bəşəriyyətin sərvətidir. Bizim qarşımızda öz mövcudluğu ilə unudulmayacaq bir həqiqəti – insan əxlaqının səmimiliyini, əsl yaradıcılığı təsdiqləyən tarixi portret dayanmışdır. Burada ən vacib faktor yalnız obrazın zahiri cizgilərinin oxşarlığı deyil, həm də daxili psixoloji həqiqətdir. Heykəltəraş üçün ən vacib olanı bu idi iki, XX əsrin bu böyük bəstəkarının daxili aləminin bütün mürəkkəb təfərrüatlarını, "qəlbinin dialektikasını" tamaşaçıya çatdırsın. Müəllif dahi bəstəkarın həyat və yaradıcılığını, onun şəxsiyyətini bu nəhəng mərmər qayası üzərində üç əsas mövzu – "Musiqi və zaman", "Bəstəkarın yaradıcılığından səhifələr", "Bəstəkarı cahana bəxş eləyən torpaq-Vətən" üzərində qurmuşdur. Mürəkkəb relyeflər sadəcə müxtəlif heykəltəraşlıq formalarının plastik həlli deyil, sanki müxtəlif rəng çalarlarına malik, parlaq rəngkarlıq əsəri təəssüratını da yaradır. Abidə nadir istedada malik olan iki şəxsiyyətin – dahi Qara Qarayevin nəhəng musiqi və fəlsəfi dünyasının və Fazil Nəcəfovun mayası səmimiyyətdən yoğurulan qeyri-adi sənət aləminin vəhdətindən yaranmışdır. Hər iki şəxsiyyəti zaman və onları cahana bəxş eləyən Vətən yetişdirmişdir.

**Nəticə**

Müstəqillik dövrü heykəltəraşlarında portret janrında mövcud olan yaradıcılıq axtarışlarına göstərdiyimiz münasibətin bilavasitə müraciət etdikləri süjet və obrazlarda psixoloji yaşantıların ifadəsini göstərilməsi təsadüfi olmamışdır. Belə ki, hər bir portret reallıqda müəyyən yaşantının ifadəsi, fərqli bir tərzin daşıyıcısıdır.

**ƏDƏBİ YYAT**

1. Ağasoy-Səfərova H. Müstəqillik dövründə Azərbaycan dəzgah heykəltəraşlığı [Mətn]: sənətşün. üzrə fəls. d-ru elmi dər. al. üçün təq. ed. dis-nın avtoreferatı – Bakı, 2015.
2. Zeynalov A. Heykəllərin şəhər mühitində rolu: //Palitra .-2014.- 25 oktyabr.- S.15.
3. Qasımov Q. Heykəltəraş Fazil Nəcəfovun yaradıcılığında ənənə və müasirlik [Mətn] : sənətşün. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı – Bakı, 2015.
4. Qasımov Q. "Fazil Nəcəfovun yaradıcılığında portret janrı"// AMEA İncəsənət və Mədəniyyət problemləri, Bakı-2009, № 3 (29), ss. 172-175.
5. Нариманбеков О. Выразительное молчание в металле и камне. О скульпторе Фазиле Наджафове. Рукопись. Март 1994.
6. Новрузова Дж. В мастерской Фазиля Наджафова. – Международная Академия архитектуры стран Востока, Национальная Академия наук Азербайджана, Отдел истории Архитектуры, градостроительства и реставрации. Ежегодник. Сборник, посвященный памяти академика Абдул Вахаба Саламзаде. Баку: Нурлан, 2006. 134 с. Сс.50-60.

***Sənətşünaslıq üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının***
***"İncəsənət tarixi" kafedrasının baş müəllimi***
***E-mail: narmin_eminbayli@yahoo.com***

**Narmin Eminbeyli**

## PORTRAIT FEATURES OF THE MONUMENTAL MONUMENT OF AZERBAIJANI COMPOSER GARA GARAYEV

The portrait genre has a special place in Azerbaijani sculpture. In addition to the appeal to the life and activity of the personalities who played an important role in the history, literature, literary-cultural life of Azerbaijan, the creation of self-portraits of these persons was also given importance in the activity of the sculptors. It is possible to give as an example the painting of portraits and the erection of statues of Fuzuli, Nizami, Nasimi, Khatai and others. One of such prominent cultural figures is Azerbaijani composer Gara Garayev. One can also see the involvement of Gara Garayev's personality in portrait activity in the work of People's Artist Tahir Salahov. However, the monument to Gara Garayev was erected in Baku in 2014. In the article this monument was involved in the research. The fact that this monument, the author of which is People's Artist Fazil Najafov, was met with joy and interest by the leadership of the Republic and the public, became the subject of wide discussion shows that the sculptor achieved his goal.

In the article the artistic features of the monument, the conditions of its creation, the technique of the sculptor's work are studied.

**Keywords:** *Gara Garayev, sculpture, portrait, image, monumental, artistic.*

**Нармин Эминбейли**

## ПОРТРЕТНЫЕ ОСОБЕННОСТИ МОНУМЕНТАЛЬНОГО ПАМЯТНИКА АЗЕРБАЙДЖАНСКОМУ КОМПОЗИТОРУ ГАРА ГАРАЕВУ

Портретный жанр занимает особое место в азербайджанской скульптуре. В творчестве скульпторов, помимо обращения к жизни и деятельности личностей, сыгравших важную роль в истории, литературе, литературно-культурной жизни Азербайджана, важное значение придавалось также созданию портретов самих этих личностей. В качестве примера можно привести написание портретов и установку памятников Физули, Низами, Насими, Хатаи и др. Одним из таких выдающихся деятелей культуры является азербайджанский композитор Гара Гараев. В творчестве народного художника Таира Салахова мы также видим отражение личности Гара Гараева в портретной живописи. В 2014 году в Баку был установлен памятник Гара Гараеву. Статья содержит исследование этого памятника. Тот факт, что этот памятник, автором которого является народный художник Фазиль Наджафов, был с радостью и интересом встречен руководством республики и общественностью, стал предметом широкого обсуждения, свидетельствует о том, что скульптор достиг поставленной им цели. В статье рассматриваются художественные особенности памятника, обстоятельства его создания, техника работы скульптора.

**Ключевые слова:** *Гара Гараев, скульптура, портрет, образ, монументальный, художественный.*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 01.10.2025**
**Son daxilolma tarixi:08.11.2025**